# Ulu Öndərin iqtisadi yüksəliş strategiyası

***Bu** gün Azərbaycan reallığında baş verən iqtisadi yüksəlişin, sahibkarlığın cəmiyyətin əsas təkanverici qüvvəsinə çevrilməsinin kökündə, şübhəsiz, ulu öndər Heydər Əliyevin zamanında düşünülmüş, gələcəyi ehtiva edən strateji baxışı dayanır. Ulu öndər hələ ötən əsrin sonlarında azad iqtisadi münasibətlərin, sahibkarlığın təşviqini dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyən etmişdi. "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur", - deyə verdiyi mesaj əslində güclü bir iqtisadi gələcəkdən xəbər verirdi. Bu inkişaf konsepsiyası həm də milli dövlətçilik ideologiyasının mühüm sütunlarından biri oldu. Heydər Əliyevin dövründə sahibkarlığın hüquqi bazasının yaradılması, azad bazar prinsiplərinə keçidin təmin olunması, özəl sektorun təşviqi ilə bağlı qəbul edilən qərarlar Azərbaycan iqtisadiyyatının sosialist plan sistemindən çıxaraq müstəqil bazar münasibətlərinə inteqrasiyasını təmin etdi.*

Bu gün isə həmin yolun uğurla davam etdirilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni bir mərhələyə qədəm qoyub. Dövlət başçısının "ölkəmizin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır" fikri reallığa çevrilmiş inkişaf modelidir. Bu sahədə qanunvericilik təkmilləşdirilir, sahibkarlar üçün əlverişli mühit yaradılır, dövlət dəstəyi mexanizmləri genişləndirilir, şəffaflıq təmin edilir. Artıq sahibkar təkcə bir biznes subyekti deyil - o, cəmiyyətin inkişafına töhfə verən, sosial rifahın yüksəlməsində rol alan strateji fiqurdur.

Bir vaxtlar cəmi bir neçə özəl müəssisənin mövcud olduğu Azərbaycanda bu gün on minlərlə sahibkar fəaliyyət göstərir. Regionlarda açılan yeni istehsal müəssisələri, innovativ texnologiyalara əsaslanan biznes təşəbbüsləri və qeyri-neft sektoruna yönələn sərmayələr sübut edir ki, sahibkarlıq yalnız iqtisadiyyatın deyil, eyni zamanda dövlətin modernləşməsi prosesinin əsas aparıcı qüvvəsidir. Bütün bu nailiyyətlərin arxasında isə siyasi iradə, strateji baxış və dövlət-sahibkar əməkdaşlığının güclü modeli dayanır. Bu model isə nəinki ölkə daxilində, həm də regional səviyyədə nümunəyə çevrilib. Azərbaycanın bu yolda atdığı addımlar göstərir ki, sağlam sahibkarlıq mühiti olmadan iqtisadi inkişafdan danışmaq mümkün deyil.

25 aprel Prezident İlham Əliyevin 2016-cı il 21 aprel tarixli Sərəncamı ilə təsis edilən Sahibkarlar Günüdür. Eyni zamanda bu gün Azərbaycanın sosial-iqtisadi tarixində mühüm dönüş nöqtələrindən birinin rəmzi ifadəsidir. Bu tarixin təsis olunması ilə sahibkarlığın iqtisadiyyatdakı rolu, qeyri-neft sektorunun gücləndirilməsindəki əhəmiyyəti və işgüzar təbəqənin cəmiyyət üçün daşıdığı strateji məsuliyyət vurğulanır. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, neftdənkənar sahələrin inkişafı, rəqabətqabiliyyətli məhsul istehsalı və ixrac potensialının artırılması kimi hədəflər məhz sahibkarlığın inkişafını prioritetə çevirmişdir. Sahibkarlar Gününün qeyd edilməsi bu missiyanı daşıyan insanların əməyinə verilən siyasi, mənəvi və ictimai qiymətdir. Bu addım həm də sahibkarlara göstərilən etimadın, onların fəaliyyətinə dövlət dəstəyinin sistemli xarakter aldığının göstəricisidir. Özəl sektorun inkişafına yönəlmiş güzəştli kreditlər, vergi və inzibati islahatlar, investisiya təşviqi mexanizmləri və regionlarda yaradılan sənaye parkları bu diqqət və qayğının real nəticələridir.

Azərbaycanda sahibkarlığın inkişafı sahəsində atılan ardıcıl və düşünülmüş addımlar, bu sahənin təkcə iqtisadiyyatın bir seqmenti kimi deyil, həm də milli inkişaf strategiyasının mərkəzi elementi kimi qəbul edildiyini təsdiqləyir. Xüsusilə 2008-ci ildən tətbiq olunan "bir pəncərə" sistemi, ölkədə biznes mühitinin sadələşdirilməsi və şəffaflaşdırılması istiqamətində atılmış mühüm addımlardan biri kimi tarixə düşüb. Əvvəllər bir hüquqi şəxsin qeydiyyatı üçün 15 prosedurun və 30 günün cəmi bir prosedura və 3 günə endirilməsi sahibkarlığa dövlətin real dəstək verdiyini aydın göstərir.

Əlbəttə, sadəcə inzibati prosedurların sadələşdirilməsi ilə kifayətlənmək olmazdı. Sahibkarlığın davamlı inkişafını təmin etmək üçün dövlət və sahibkarlar arasında sistemli tərəfdaşlıq modelinin qurulması zəruri idi. Bu məqsədlə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), AZPROMO, Biznes Tədris Mərkəzləri kimi struktur və platformaların yaradılması sahibkarlarla dövlət arasında səmimi, çevik və davamlı dialoqun qurulmasına xidmət edir. Bu institutlar həm bilik və bacarıqların artırılmasına, həm də bazara çıxış imkanlarının genişlənməsinə zəmin yaradır.

Vətən müharibəsində qazanılmış tarixi Qələbə və 2023-cü ildə keçirilmiş antiterror tədbirləri nəticəsində Azərbaycanın tam suverenliyinin bərpası yeni iqtisadi səhifənin başlanğıcını qoydu. Uzun illər ərzində işğal altında olan, lakin böyük iqtisadi potensiala malik ərazilərin azad olunması, ölkənin iqtisadi xəritəsində Qarabağ və Şərqi Zəngəzur yeni perspektiv iqtisadi məkan kimi formalaşır. Böyük Qayıdış Proqramı - azad edilmiş torpaqlarda sistemli şəkildə həyatın və iqtisadi fəaliyyətin yenidən qurulmasını təmin edən mühüm sənəddir. Proqram çərçivəsində əlverişli biznes mühitinin yaradılması, startapların təşviqi, xarici sərmayədarların cəlbi, texnologiya və innovasiyaların təşviqi üçün geniş imkanlar yaradılır. Maliyyə resurslarına çıxışın asanlaşdırılması, maya dəyərinin aşağı salınması və müasir infrastrukturun qurulması isə bu bölgələri cəlbedici investisiya məkanına çevirir. Ən önəmlisi bu proses paytaxt mərkəzli iqtisadiyyat modelindən bölgələrə doğru keçidi stimullaşdırır, ərazi balansının və regional inkişafın təmin olunmasına xidmət edir. Görülən işlərin nəticəsi olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları artıq müasir Azərbaycan iqtisadiyyatının lokomotiv bölgələrinə çevrilməkdədir. Bu həm iqtisadi artım, həm də əhalinin rifahı baxımından yeni bir dövrün - bərpa, quruculuq və dayanıqlı inkişaf dövrünün başlanğıcıdır.

Sahibkarlığın inkişafı sahəsində tətbiq olunan strateji yanaşmalar göstərir ki, Azərbaycanın iqtisadi gücü yalnız mövcud imkanlarla deyil, həm də bunu necə dəyərləndirdiyi və gələcəyə necə hazırlaşdığı ilə ölçülür. Sahibkarlar Günü - əslində Azərbaycanın müasir iqtisadi təfəkkürünün ifadəsidir. Bu hər bir sahibkar üçün həm motivasiya, həm də məsuliyyət günüdür. Çünki bu ölkənin sabahı, iqtisadi müstəqilliyinin möhkəmlənməsi, dünya bazarlarında Azərbaycan brendinin tanınması onların əli ilə gerçəkləşir.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**